

*QƏNDAB*

## Nə mənası

İllərimin yoxdur adı,
Günlərimin itib dadı,
Keçmişimin solub yadı,
Gələcəyin nə mənası?!

Dağ başında qar olmasa,
Bağ-bağçada bar olmasa,
Yar yanında yar olmasa,
Var demənin nə mənası?!

Nə olsunsa axır sual,
İstərsən get, istərsən qal!
Hərdəm məni yadına sal
Yar, demənin nə mənası?!

Neçə canlar alar dünya,
Hey boşalar, dolar dünya,
Hikmətin anlamırsansa
Dur, demənin nə mənası?

Qaytar geri, qaytar görüm
Hanı mənim qönçə gülüm,
Hanı mənim şux bülbülüm?
Tufan qopdu, sel apadı,
Qaytar geri, qaytar görüm!

Mənim sevgim qəlbim kimi,
Dilimləndi dilim-dilim!
Yellər aldı, yel apardı,
Qaytar geri, qaytar görüm!

Qəndab sənin öz aləmin,
Tükənməsin söz aləmin,
Dərdin çəkdin el-aləmin,
Fəda etdin ömür-günün
Bircə anın, bircə günün
Qaytar geri, qaytar görüm!

Nə qərib hiss imiş hökmdar olmaq;
Daraldıb dünyanı hökm verirəm!
Dünyanın ucunu gördüyüm halda,
Burnumun ucunu mən görməyirəm!

Taleyim əlimdə oyuncaq kimi,
Atıram, tuturam necə gəldiysə!
İzimi azdırdı bütün yollarım,
Fələk bircə kərə necə güldüysə!

Elə bir zirvədən baxıram ki, mən,
Dərənin dibində əriyib qalıb!
Elə bir dərində yatıram ki, mən,
Ölüm də zülməti sevgiylə sarıb!

Ahh...
Hər şey boş, hər şey yalan...
Nədir bu dünyadan mənə qalan?!
Heç nə...
Görəsən,
Dünyanın boş olduğunu bilsəydim,
Heç belə dolu-dolu yaşardımmı?!
Qəzəbimdən kükrəyəndə
Çaylar kimi daşardımmı?!
Yana-yana mən ağlayıb,
Ürəyimə od bağlayıb,
Həd-hüdudu aşardımmı?!
Gülüşüm gül açardımı,
Sevinçim nur saçardımı,
O sevdalı baxışları
Baxışlarım tapardımı?!
Yox...
Sən demə,
Heç nə boş deyilmiş!
Yaşadıqca boşalan,
Axırda da boş qalan
Mənim könül dünyammış!

Atəşlə oynayan qadın,
Dön, geriyə bax!
Küllərin təpə olmuş...
Əllərin qarsılmış,
dodağın yanmış,
Bir atəş qəlbinə
çoxdan yol almış...
Atəşlə oynayan qadın,
Dön, geriyə bax!
Yanmamış nəyin qalmış...
Qorxmadınmı bir gün
gözə gələrsən,
Qorxmadınmı bir gün
bir közü əl-əl gəzərsən?
Görürsən,
odunu savunacaq,
külünü sovuracaq,
Bir kimsə yoxdur...
Bəs niyə suyu
üfürə-üfürə
içirsən?!

Mən çoxdan bitdim,
getdim...
Tanıdığım dünyaya
tanımadığım mənlə
yenidən gəlirəm...
Bəzən ayağımla
düşünür,
başımla yeriyir,
Bəzən də yenə
gedir-gəlirəm...
Hər gəlişdə
dəfinələr
boşluqlarda itir,
Hər gedişdə
qatar gedir,
gecikirəm...
Sonra isə,
söz ordumla
axtarıram
itiyimi!...

Beynimdə su şırıltısı,
Qulaqlarımdan axır
Baməzə pıçıltıların.
Dodağıma dəyən sevincinə
Heç kəs mənim tək gülməyir.

Qaranlıq - bağrı yarıq,
Günəşsiz də dolmayır.
Gecəmi aydınlatır üzün.
Düşdüyüm üçrumun dibin
Heç kəs mənim kimi
görməyir.

Həsrətinlə baş-başa,
Ayrılığım tamaşa:
Kədərimə bahanə
Tanış bir xatirə
qapımı döyür.
Bakının dəli Qızı - Xəzri
pəncərədən içəri atır
saçımın tellərini.
Issız ormanlarda
Qara qarğalar
dimdikləyir Ürəyimi.
Heç kəs mənim tək ölməyir.

Qaranlıqda yüyürəndə,
Ayağına dolaşan işığa baxma,
Günahların deyil, sezgilərindir.
Əğər niyyətin təmizdirsə,
Qorxma,
Onsuz da bütün pisliklər sənindir.
Heç kəs mənim tək bilməyir.

Hər böyüyün gözündə
Hüzünlü bir uşaq var,
Hər uşağın köksündə
Sevinc məşəli yanar!
Diqqətlə baxsan əgər,
Sevgiylə baxsan əgər!
Hər mənalı baxışda
Başqa dünya görərsən,
Mənim kimi doğulub,
Mənim kimi ölərsən.

Hər titrəyən dodaqdan
Həsrət nidası qopar,
Hər açılan çiçəklə
Tər-təzə arzu açar
Hər canlıda, cansızda
Neçə-neçə şeir var!
Hər yazılan şeirə
Neçə-neçə ürək yar!
Diqətlə baxsan əgər,
Sevgiylə baxsan əgər!
Hər şeyin necə tez-tez
Dəyişdiyin görərsən,
Mənim kimi doğulub,
Mənim kimi ölərsən!

Həyat dəyişimdədir,
Həyat deyişimdədir.
Sən qınama heç kəsi
Yaşamaq üçün bəzən
Öldürərlər, ölərlər,
Göz yaşları içində
Qəhqəhəylə gülərlər.
Diqqətlə baxsan əgər,
Sevgiylə baxsan əgər.
Bu qarışık dünyada
Nələr, nələr görərsən.
Mənim kimi doğulub,
Mənim kimi ölərsən.

Gecə də özəldi,
Ay da özəldi,
İkisi bir yerdə
Daha gözəldi!
Ayın işığıyla oynayan dəniz,
Torpağın ətrindən doymayan dəniz
Qaranlıq gecəni çəkib qoynuna,
Kədərin, qüssəsin alır boynuna,
Gizli hekayətin danışır ona...
Hırçın sularına qoşulub mən də
Gözlərim sularda, xəyalım Sənlə
Azğın ləpələri bağrıma basıb,
“Sən, Sən, Sən,..
Bir dənəsən,” deyirəm!
Dalğalar üzümə damlalar saçır,
Ümidsiz gecəmin yuxusu qaçır
Bir gecəm sabahı dənizlə açır.

Yatıram,
Anamın ayaqları altında.
Şeirlərim oyaqdır.
Kabusum məni sarır,
Şeirlərim uzaqdır.
Şeirimi kabusum batırır,
Anamı çağırıram;
Anam köməyə çatmır.
Kabuslarım çoxalır;
Şeirlərim tuzaqdır.
Oyanıram;
Bayırda külək əsir,
Qaranlığa baxıram,
Gözüm gözümü kəsir,
Sözüm sözümü kəsir.
Bayırda əsən külək,
İçimdən keçib
Çiçəkləri tozlayır.
Bu gecə Bahar gəlir!

Külək -
təbiətin şıltaq qızı!
Səni tuta bilmirlər,
Səni sata bilmirlər,
Səni nişan alıb ata bilmirlər!
Nə qədər zəhərləsələr də,
Sənə bata bilmirlər.
Əs, əs,
Vətənimin bu başından
O başına,
Qəlbimin bu tayından
O tayına...
Gəz, dolan dünyanı;
Günəşin qovurduğu,
Sussuz səhralardan,
Həsrətin qurutduğu
ürəklərdən,
Zülmün söndürdüyü
diləklərdən keç!
Uşaqlıq kabusum,
Ahıllıq dostum,
Xəyallarımın gəzər ayağı!
Çiçəklərin, sevgilərin dayağı,
Əs, əs,
Sərin-sərin...

Hər gün Səni görürəm,
Hər gün başqa rəngdə.
Kədərimdə qapqara,
Həsrətimdə mavisən!
Xəyalarımda pəmbə,
Nifrətimdə sarısan,
Sən dünyamla yarısan!

Hər gün Səni düşünnəm,
Hər gün başdan düşünnəm.
Hər gün başa düşürəm
Hər gün başqa düşünnəm.
Hər gün başdan düşürəm
Mən düşünə-düşünə.

